1-_Layout 1 12.06.2021 17:23 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 11 (601)

15 iyun 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# 15 iyun Azərbaycan xalqının Milli Qurtuluş Günüdür

**1993-cü il iyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır.**



Milli qurtuluş fəlsəfəsi sözün geniş mənasında Azərbaycanın mövcudluğunu, onun ən böyük tarixi nailiyyəti olan müstəqilliyini təmin etdi. Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd olunur.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq, ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. AXC-Müsavat hakimiyyəti isə təbii ki, Heydər Əliyevin uğurlarını qısqanclıqla qarşılayıb ona mane olmağa çalışdı. Vəziyyətdən səbirlə çıxan Prezident Heydər Əliyev televiziya vasitəsilə xalqa müraciət etdi. İyunun 20-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə yerli və xarici jurnalistlər üçün brifinq keçirdi. İyunun 21-də isə bir sıra ölkələrin diplomatları ilə görüşdü. Bu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxardı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlandı.

**Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifəsini təşkil edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 iyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.**

**"AZƏRTAC"ın materialları əsasında hazırlanıb.**

# Nazir V.Eyvazov: "Əminəm ki, gənc zabitlərimiz öz xalqına və dövlətinə sədaqətlə xidmət edəcəklər"





**İyunun 11-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbində 2020-2021-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.**




Tədbirdə respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ali Hərbi Məktəbin döyüş bayrağı sıra meydanına gətirilib, Ümummilli Lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçmiş hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Nazir müavini – Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov məzunların buraxılış mərasiminin Ali Hərbi Məktəbin həyatında ən əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdıraraq təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.



Gənc zabitlər qarşısında çıxış edən daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov məmnunluqla bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəyə rəhbərlik etməyə başladığı ilk dövrdən qoşunların döyüş hazırlığının yüksəldilməsini daim diqqət mərkəzində saxlayıb, müasir silah və texnika ilə təminatı, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində bir çox vacib qərarlar qəbul edib. Məhz bu ali münasibətin nəticəsidir ki, Daxili Qoşunlar qarşıya qoyulan istənilən xidməti-döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadir silahlı birləşməyə çevrilib.

Daxili Qoşunlar üçün yüksək ixtisaslı kadrların hazırlanmasında danılmaz roluna, təmənnasız yardımlarına görə qardaş Türkiyə Respublikasının Jandarma Qüvvələri Baş Komandanlığına, hərbi mütəxəssislərinə təşəkkürünü bildirən cənab nazir bu işdə digər ölkələrin də anoloji təhsil müəssisələri ilə işgüzar əlaqələrin əhəmiyyətini qeyd edib.

General-polkovnik V.Eyvazov Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbə ilə nəticələnən 44 günlük Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının da ön cəbhədə iştirak edərək mərdlik, qəhrəmanlıq, vətənpərvərlik nümunələri göstərdiyini, onların arasında Ali Hərbi Məktəbin 33 məzununun olmasının bu təhsil müəssisəsində kursantların vətənpərvərlik, dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda tərbiyəsi, yüksək intizam, mətinlik, peşəkarlıq keyfiyyətlərinə malik olması üçün ortaya qoyulmuş böyük və əzmkar fəaliyyətin əyani təsdiqi olduğunu vurğulayıb.

O, Daxili Qoşunların şəxsi heyətinin işğaldan azad edilmiş ərazilərdə, habelə xüsusi karantin rejimi dövründə polis əməkdaşları ilə birgə fəaliyyətinin də əhəmiyyətli və təqdirəlayiq olduğunu qeyd edib.

Məzunların həyatında yeni bir dövrün başlandığını nəzərə çatdıran daxili işlər naziri gənc zabitləri, onların valideynlərini və yaxınlarını Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirmələri münasibətilə təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil müəssisəsinin rəhbərliyinə və zabit-müəllim heyətinə təşəkkürünü bildirib, olduqca vacib fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Nazir Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti bundan sonra da xalqa və dövlətə sədaqətlə xidmət edəcək, ölkədə asayişin və təhlükəsizliyin etibarlı qorunması, qarşıya qoyulmuş tapşırıqların tam və layiqincə yerinə yetirilməsi üçün var qüvvəsi ilə çalışacaqdır.

Nazir Ali Hərbi Məktəbi əla qiymətlərlə bitirmiş üç məzuna fərqlənmə diplomlarını və "baş leytenant" hərbi rütbələrinin paqonlarını təqdim edib.

Sonda gənc zabitlər təntənəli marşla tribunanın qarşısından keçib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 12.06.2021 17:06 Page 1



# "FORMULA-1 AZƏRBAYCAN QRAN PRİ" YARIŞLARI ZAMANI TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ HƏRBİ QULLUQÇULARIMIZ TƏRƏFİNDƏN YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİL EDİLİB



"Formula-1 Azərbaycan Qran Pri" yarışı ilə əlaqədar Daxili Qoşunların şəxsi heyətinin hazırlığı yoxlanılıb

**İdmanın müxtəlif növləri üzrə dünya və qitəmiqyaslı çempionatların, beynəlxalq turnirlərin məhz paytaxt Bakı şəhərində keçirilməsi xüsusilə qürurvericidir.**

**Bu il iyun ayının 4-dən 6-dək paytaxtımız növbəti dəfə "Formula-1 Azərbaycan Qran Pri" yarışlarına evsahibliyi edib.**

**Bu idman yarışı zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması, ərazinin mühafizəsi və nəzarət-buraxılış tədbirlərinə polis əməkdaşları ilə birlikdə cəlb olunan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti qarşıya qoyulmuş tapşırıqların icrasına tam məsuliyyətlə yanaşmaqla layiqincə öhdəsindən gəlib.**



Qeyd edilməlidir ki, ilk növbədə, müvafiq plan-hesab hazırlanaraq şəxsi heyətin xidmət sahələri üzrə bölgüsü aparılıb, polislə qoşunların birgə fəaliyyətinin əlaqələndirilməsi, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin təşkili məqsədilə Baş idarəetmə mərkəzi yaradılıb.

Yarışların təşkil olunacağı ərazi və obyektlərə baxış keçirilərək xidmətin təşkili baxımından təhlil olunub, aidiyyəti üzrə komandir heyəti xidmətaparma yerləri ilə əyani tanış edilib. Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunan şəxsi heyətə tədbirin əhəmiyyəti, qanunçuluğun qorunması prinsipləri izah edilərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşılması tələb olunub.

Yarışlar ərəfəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 99713 saylı hərbi hissəsində daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi general-mayor Tofiq Hüseynovun rəhbərliyi ilə keçirilən tədbirdə "Formula-1 Azərbaycan Qran Pri" yarışı zamanı tapşırıqların icrasına cəlb ediləcək hərbi qulluqçuların xidmətə hazırlığı, təminat-təchizat məsələlərinin həlli, eləcə də nəqliyyat vasitələrinin vəziyyəti yoxlanılıb. Xüsusi təyinatlı bölmələrin, perimetr boyu xidmətin aparılmasına cəlb olunacaq şəxsi heyətin xüsusi geyim formalarına, hərtərəfli təminatına, xüsusi vasitə və avadanlıqlarla, rabitə vasitələrilə təchizatına və nəqliyyat vasitələrinə xüsusi diqqət yetirilib.

Bununla yanaşı, həvalə edilən obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmin olunması mövzuları üzrə xüsusi məşğələlər keçirilib, xidmətə cəlb olunacaq qadın hərbi qulluqçuların da müvafiq məşğələlərdə iştirakı təmin edilib.

Müəyyən edilib ki, yarış zamanı xidməti-döyüş tapşırıqlarının tam həcmdə yerinə yetirilməsi üçün planlaşdırılmış hazırlıq tədbirlərinin vaxtlı-vaxtında icrası təmin olunub.

İyun ayının 1-dən Atletlər kəndində, 2-dən etibarən isə yarış zolağında müəyyən edilmiş tapşırıqların icrası ilə əlaqədar Daxili Qoşunların xidmətə cəlb olunan hərbi qulluqçularının polis əməkdaşları ilə birlikdə xidməti başlayıb. Hərbi qulluqçularımız tərəfindən yarış və qeyri-yarış obyektlərinin, marşrut üzrə perimetr boyu ərazilərin mühafizəsi istiqamətində qarşıya qoyulan bütün tapşırıqlar uğurla yerinə yetirilib. Mühəndis-istehkam qrupları tərəfindən yarış zolağı və müəyyən olunmuş digər obyektlər öncədən yoxlanılaraq müvafiq qaydada aidiyyəti üzrə mühafizəyə verilib. Nəzarət-buraxılış məntəqələrində buraxılış rejimi təmin olunub, hərəkət icazəsi olan mülki avtomobillərin yoxlanılması zamanı xidməti itlərdən də istifadə edilib. Qeyd olunan istiqamətlər üzrə qarşıya qoyulmuş tapşırıqlar tam həcmdə yerinə yetirilərək, xidmətin aparılmasında hər hansı bir nöqsana yol verilməyib. Bu fəaliyyətə qadın hərbi qulluqçular da cəlb olunublar.





Həmçinin, xidmətə cəlb olunan hərbi qulluqçularla əvvəlcədən təlimatlandırma aparılıb, onların mənəvi-psixoloji və fərdi keyfiyyətlərinə xüsusi diqqət yetirilməsi nəticəsində ünsiyyətdə etik davranış qaydalarına ciddi əməl olunub.

Yarışlar keçirilən müddətdə xidmətin təşkili üçün bütün tədbirlər görülüb, şəxsi heyətin daşınması, onların qidalanması, hərbi qulluqçulara tibbi xidmətin göstərilməsi, asudə vaxtının səmərəli təşkili xüsusi diqqət mərkəzində saxlanılıb.

Göründüyü kimi, mötəbər tədbir zamanı ictimai təhlükəsizliyin təmin olunmasında kifayət qədər təcrübəyə malik olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti bu dəfə də qarşıya qoyulmuş bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

**Mətbuat xidməti**

# REAL DÖYÜŞ ŞƏRAİTİNƏ UYĞUNLAŞDIRILMIŞ XÜSUSİ TƏLİM KURSU KEÇİRİLİB

Daxili işlər nazirinin müavini – daxili qoşunların komandanının müvafiq əmrinə əsasən, 2018-ci ildə Daxili Qoşunların Ali Hərbi Məktəbindən məzun olmuş və cari ilin 24-25 may tarixlərində Daxili Qoşunların Təlim mərkəzində təşkil olunmuş metodiki-təlim toplanışında fərqlənmiş zabitlərlə mayın 26-dan iyunun 1-dək xüsusi təlim kursu keçirilib.



Təlimin ilk günündə Daxili Qoşunların Baş İdarəsinin qərargahında əməliyyat və döyüş hazırlığı idarəsinin rəisi - qərargah rəisinin müavini polkovnik Zəfər Əliyev və məşğələ rəhbərləri - polkovnik Zəfər Yusibov, polkovnik-leytenant Tural Novruzov, mayor Nurlan Məmmədov, mayor Ələsgər Muxtarov tərəfindən təlimdə iştirak edən hərbi qulluqçulara kursun məqsədi, xüsusi təyinatlı bölmənin fəaliyyətinin spesifikliyi və təhlükəsizlik qaydalarına riayət olunması izah edilib.



Bundan əlavə, məşğələ rəhbərləri kurs iştirakçıları ilə döyüş təcrübələrini bölüşərək torpaqlarımızın azad olunması ilə nəticələnən Vətən müharibəsində düşmənin sinəsinə dağ çəkən hərbi qulluqçularımızın peşəkarlığı, mərdliyi, qazanılan uğurlar barədə söhbət ediblər.

Polkovnik Z.Əliyev vurğuladı ki, təsdiq olunmuş məşğələlər cədvəlinə uyğun olaraq, 99713 saylı hərbi hissənin Təlim mərkəzində məşğələ rəhbərləri tərəfindən atıcı silahlardan xüsusi təlim atış çalışmalarının yerinə yetirilməsi, xüsusi taktiki hazırlıq üzrə taktiki yürüşlər, pusqu, kəşfiyyat və yaşayış yerlərində xüsusi əməliyyatların keçirilməsi, hərbi topoqrafiya üzrə xəritə, GPS və kompasdan istifadə, azimut üzrə hərəkət, hədəflərin koordinatlarının tapılması, hərbi dağçılıq üzrə kəndirlərdən istifadə və helikopterdən sürətli enmə üsulları, eləcə də maneələr zolağının dəf edilməsi, uzaq məsafələrə qaçış və düşmən bölgəsindən sıyrılma, taqım (qrup) komandirinin xüsusi əməliyyatlar zamanı qərar qəbuletmə və döyüş əmrini verməsi istiqamətində məşğələlər real döyüş şəraitinə uyğun keçirilib.

Sonda Təlim mərkəzində kurs iştirakçılarından atəş, taktika, hərbi topoqrafiya və fiziki hazırlıq üzrə məqbullar qəbul edilib, nəticələri yüksək olan zabitlərdən xüsusi təyinatlı bölmələrdə xidmət etmək üçün namizədlər seçilib.

Daxili Qoşunların Baş İdarəsinin qərargahında əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsində xüsusi təyinatlı bölmələrin hazırlığı üzrə baş zabit polkovnik-leytenant Tural Novruzov xüsusi təyinatlıların qarşıya qoyulan tapşırıqların icrası zamanı göstərdikləri döyüş qabiliyyətinin onlarla keçirilən təlim və məşqlərin, təşkil olunan kursların bariz nəticəsi olduğunu söylədi.

İnanırıq ki, kurs iştirakçılarının qazandıqları praktiki təcrübə gələcəkdə onlara və tabeliklərində olanlara uğur qazandıracaq.

**kapitan Sadıq Rəfiyev**

# TAPŞIRIQLARI KEYFİYYƏTLƏ YERİNƏ YETİRMƏK BACARIĞI...

Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir. Bu baxımdan, 16077 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın şəxsi heyəti yüksək döyüş hazırlığı və hərbi intizamı ilə seçilir. Peşə vərdişlərinin artırılması məqsədilə şəxsi heyət mütəmadi olaraq məşğələlərə cəlb olunur. Keçirilən məşğələlərin nəticəsidir ki, batareya qarşıya qoyulan vacib, eyni zamanda, məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığına malikdir. Bu işdə batareyanın təcrübəli komandiri kapitan Yaqub Abbasovun zəhməti danılmazdır.





Minaatan batareyanın vəzifələri barədə danışan kapitan Y.Abbasov bildirdi ki, əsas tapşırıqlar döyüş əməliyyatları zamanı düşmən üzərinə asanlıqla irəliləmək üçün motoatıcı bölmələri atəş dəstəyi ilə təmin etməkdir. Həmçinin, düşmənin komanda-düşərgə məntəqəsini, kimyəvi basqın vasitələrini, artilleriyasını, tanklarını, düzünə artilleriya ilə vurulması mümkün olmayan üstüörtülü sığınacaqlarda yerləşən canlı qüvvəsini məhv etmək, xüsusi əməliyyatların keçirilməsi zamanı silahlı cinayətkarların atəş vasitələrini, istehkam qurğularını dağıtmaq, işıqverməni uzaqdan təmin etmək, eləcə də hədəfdə olan canlı qüvvəni tələfata uğratmaqdan ibarətdir. Eyni zamanda, düşmənin önünü, gerisini və dərinliklərini iriçaplı silahlarla atəşə tutan batareya hücuma keçən bölmələrin sərbəst irəliləməsinə əlverişli şərait yaradır.

Batareya komandiri söylədi ki, qarşıya qoyulmuş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi hər bir hərbi qulluqçudan böyük məsuliyyət tələb edir.

Əvvəlcə minaatan qurğular təpələrin, yarğanların əks yamaclarında quraşdırılır. Kəşfiyyat və idarəetmə taqımı şərti olaraq düşmənin yerləşdiyi məsafəni təyin edir. Alınmış məlumat batareyanın mərkəzdə yerləşən baş zabitinə ötürülür. Baş zabit isə, öz növbəsində, həmin məlumatları digər taqımların şəxsi heyətinə çatdırır. Taqımlar ötürülmüş məlumat əsasında hədəf üzərində ilkin yoxlama atışı keçirirlər. Bundan sonra kəşfiyyat taqımı optik termal kamera vasitəsilə mərminin düşdüyü yeri, eləcə də sapma məsafəsini müəyyənləşdirir. Xüsusi cihaz vasitəsilə koordinatlar dəqiqləşdirilir və yenidən atəş taqımlarına ötürülür. Batareyanın baş zabitinin "atəş" komandasından dərhal sonra yaylım atəşləri tam dəqiqliklə həyata keçirilir və düşmən mövqelərinə sarsıdıcı zərbələr endirilir. Üçüncü, sonuncu mərhələdə isə "tələfat atışı" ilə qarşı tərəfin canlı qüvvəsi və sığınacaqları məhv edilir. Bununla da verilən tapşırıq yerinə yetirilmiş olur.

Kapitan Y.Abbasov hərbi qulluqçuların peşə vərdişlərinin artırılması məqsədilə görülən işlərdən də danışdı. O, şəxsi heyətin mütəmadi olaraq praktik məşğələlərə cəlb olunduğunu dedi: "Hərbi qulluqçularla ixtisas hazırlığı məşğələsində "batareya hücumda" və "batareya müdafiədə" mövzularında təlimlər keçirilir, həmçinin, minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri, o cümlədən, təhlükəsizlik qaydaları öyrədilir".

Batareya komandiri funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan batareya komandirinin müavini-baş zabit baş leytenant İlkin İbadov, hesablayıcı-əsgər Vüqar Məhərrəmov, tuşlayıcı-əsgər Orxan Sadatovun adlarını çəkərək, əlavə etdi ki, komandiri olduğu batareya yüksək döyüş hazırlığına malikdir və istənilən zaman qarşısına qoyulan tapşırıqların icrasına hazırdır.

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 12.06.2021 17:26 Page 1



*Şəhidlərimiz*

# Xüsusi təyinatlı qətiyyəti ilə döyüşdü...

44 gün davam edən Vətən müharibəsində böyük şücaət göstərərək, dəmir yumruqla düşmənin başını əzərək torpaqlarımızı azad edən igid oğullarımızın şərəfli döyüş yolunu öyrənmək və geniş təbliğ etmək hər birimizin vətənpərvərlik borcudur.

Vətən uğrunda son damla qanınadək döyüşərək şəhidlik məqamına yüksəlmiş cəsur hərbi qulluqçularımızdan biri də gizir Ələkbərov Vüqar Telman oğludur.



Gizir Vüqar Ələkbərov 1994-cü il noyabrın 16-da Ucar rayonunun Qazyan kəndində anadan olub. Telman Ələkbərovun və Şaynat Ələkbərovanın böyüdüb tərbiyə etdiyi iki oğul övladından (Vüqar və Xəyal) biri, həmçinin, ailənin ilki idi...

Orta təhsilini doğulub boya-başa çatdığı Qazyan kənd 2 saylı tam orta məktəbində alan Vüqar, 2010-cu ildə həmin təhsil ocağının 9-cu sinfini bitirərək, Göyçay şəhərindəki Dövlət İdarəetmə və Texnologiya Kollecinə qəbul olunub. 2014-cü ildə kolleci "Nəqliyyat vasitələrinin təmiri və servis xidməti" ixtisası üzrə bitirib. Müddətli həqiqi hərbi xidmətini 2014-cü ilin iyul ayından 2016-cı ilin yanvar ayınadək Daxili Qoşunların 99713 saylı hərbi hissəsində keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların 16077 saylı hərbi hissəsinin xüsusi vasitələrin təbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilərək, Vətənə olan şərəfli borcunu yerinə yetirməyə davam edib. Xidmət etdiyi dövrdə nümunəvi xidməti və yüksək hərbi intizamı ilə böyük rəislərin etimadını doğruldub, hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb. Məhz buna görə də 2017-ci ilin fevral ayından etibarən qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müxtəlif vəzifələrdə xidmətini davam etdirən silahdaşımız 2018-ci ilin may ayından atəş təminatı qrupunda iriçaplı pulemyot yarımqrupunun komandiri vəzifəsinə irəli çəkilib. Tələbkarlığı və qayğıkeşliyi sayəsində tabeliyindəki şəxsi heyətin rəğbətini qazanan Vüqarın bir komandir kimi fəaliyyəti də hər zaman müsbət qiymətləndirilib.

17072 saylı hərbi hissənin "Pələng" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində qrup komandiri olmuş, 3-cü dərəcəli "Rəşadət" ordeni, "Şuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmiş baş leytenant Xəqani Məmmədov (hazırda qoşunların 16077 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirir) Azərbaycanın şanlı qələbəsi ilə başa çatan Vətən müharibəsində komandiri olduğu qrupun 2 nəfər hərbi qulluqçusunun - gizir Vüqar Ələkbərov və çavuş Cəlil Xeyrullayevin şəhidlik zirvəsinə yüksəldiyini qeyd edərək, onların döyüşlər zamanı göstərdikləri şücaətlə qürur duyduğunu bildirdi.

Baş leytenant X.Məmmədov Vüqarın komandir kimi fəaliyyətinə toxunaraq, onun ən bacarıqlı yarımqrup komandirlərindən biri olduğunu da diqqətə çatdırdı: "Qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirən və nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçu olub. Olduqca vətənpərvər və bacarıqlı yarımqrup komandiri kimi tabeliyindəki şəxsi heyətə qarşı tələbkarlığı ilə yanaşı, onlardan qayğısını da əsirgəməyib. Hər zaman mehriban və gülərüz olub. Sonuncu dəfə onunla qarşılaşdığımız Füzulidə gedən döyüşdə də yanımdan üzündə xoş bir təbəssümlə ötüb keçmişdi...".

Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlarda fəal iştirak edən gizir V.Ələkbərov Murovdağ silsiləsi, Cəbrayıl, Füzuli rayonlarının və Xocavənd rayonunun Hadrut qəsəbəsi ətrafındakı bir sıra yaşayış məntəqələrinin və strateji əhəmiyyətli yüksəkliklərin azad olunmasında, eləcə də düşmənin xeyli sayda canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsində böyük şücaət göstərib.

**12 oktyabr 2020-ci il...** Füzuli-Cəbrayıl rayonları istiqamətində gedən döyüş Vüqarın son döyüşü oldu. Onunla birgə bu döyüşdə iştirak etmiş "Pələng" xüsusi təyinatlı dəstəsində yarımqrup komandiri, "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmiş gizir Pərvin Rəhimli vətənpərvər silahdaşının qəhrəmanlığını heç zaman unutmayacağını deyir: "Vüqarla birgə Vətən müharibəsinin ilk günündən başlayaraq eyni qrupun tərkibində döyüş əməliyyatlarında iştirak etmişəm. Deyərdim ki, əsl hərbi qulluqçuya xas olan bütün müsbət keyfiyyətlər sanki onda cəmləşmişdi. Olduqca vətənpərvər, qorxunun nə olduğunu bilməyən, dostluğa və yoldaşlığa önəm verən bir insan idi. Şəxsi heyət arasında Vüqarın hörmət və nüfuzunu yüksəldən başlıca amil də məhz onun bu xarakterik xüsusiyyətləri idi.

Murovdağ silsiləsindən başlayaraq düşmənə qarşı vuruşduğumuz hər bir döyüşdə Vüqarın necə mərd insan olduğunun şahidi oldum. Döyüş meydanında ermənilərin başına od-alov yağdırmaqla bərabər, gözünü qırpmadan yaralanmış və şəhid olmuş silahdaşlarımızı onların mərmi "yağışı" altından çıxarılmasında, yaralılara ilkin tibbi yardım göstərilməsində, eləcə də ən çətin digər tapşırıqların yerinə yetirilməsində hər zaman fərqlənmişdi Vüqar.

Sonuncu tapşırığımız düşmənin Füzuli-Cəbrayıl rayonları istiqamətində strateji cəhətdən əlverişli ərazidə mövqelənmiş top batareyasını məhv etmək idi. Aldığımız kəşfiyyat məlumatına əsasən burada ermənilərin 8 ədəd 150 millimetrlik topu və xeyli sayda canlı qüvvəsi cəmləşmişdi. Bizim qrup atəş dəstəyi ilə müxtəlif istiqamətlərdən düşmənin xeyli sayda canlı qüvvəsini



məhv edə-edə irəliləyərək, əsas mövqeyinə yaxınlaşmışdı. Ermənilərlə aramızda 10-15 metrə qədər məsafə vardı. Şiddətli döyüş gedirdi. Bu vaxt səngərdə uzanmış düşmən pulemyotçusunun ayağa qalxaraq biz olan istiqamətə atdığı güllələrdən biri Vüqarın sinəsindən dəydi. Vüqarla aramızda bir-iki metr məsafə olar, ya olmazdı. Ona ilkin tibbi yardım göstərməyimizə baxmayaraq, yarası ağır olduğundan, Vüqar qollarımın arasında gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəldi.

Lakin biz erməni pulemyotçusu da daxil olmaqla, onların bütün şəxsi heyətini və toplarını məhv edib mövqelərini ələ keçirməklə, şəhid silahdaşımızın intiqamını düşməndən almağa müvəffəq olduq".

Gizir V.Ələkbərov 2020-ci il oktyabrın 15-də Ucar rayonunun Qazyan kənd qəbiristanlığında dəfn olunub. Subay idi. Dörd ay öncə nişanlanmışdı. Vüqarın ən böyük arzusu müharibə xalqımızın qələbəsi ilə bitdikdən sonra toy edib ailə həyatı qurmaq və xoşbəxt ömür sürmək idi...

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir Ələkbərov Vüqar Telman oğlu (ölümündən sonra) "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Məlumat üçün bildirək ki, "Milli TV" saytının "YouTube" internet portalı vasitəsilə yayımlanan, qəhrəman şəhid və qazilərimizə həsr olunmuş "Vətən uğrunda döyüşənlər" proqramında aparıcı Səbinə Mehdiyevanın təqdimatında qoşunların şəhid hərbi qulluqçusu gizir V.Ələkbərovun gənc nəslə nümunə olan döyüş yolu barədə məlumatlar izləyicilərə təqdim edilib.

Bundan əlavə, İbrahim Hüseynovun müəllifi olduğu və 2021-ci ildə "Radius" mətbəəsində çap olunan "Qələbə şəhidləri" adlı kitabında, həmçinin, Aidə İsayevanın "Yeni Söz" qəzetinin 4 mart 2021-ci il tarixli sayında dərc edilmiş "Bu həyatı gərək elə yaşayasan ki...", Elşən Qəninin "İki Sahil" qəzetinin saytında verilmiş "Vətən müharibəsinin qəhrəmanları: Vətən mənim vüqarım, Vüqar mənim vətənimdir" və "Yeniavaz.com" saytında işıq üzü görən "Düşmənin 100-dən artıq canlı qüvvəsini məhv edən XTQ-nin giziri şəhid Vüqar Ələkbərov" başlıqlı məqalələrdə cəsur silahdaşımızın həyat və döyüş yolu geniş işıqlandırılıb.

Sonda şəhidimizin bir zamanlar söylədiyi və indi onun məzar daşında həkk olunmuş fikirlərini qeyd etmək istəyirəm: "Həyat çox qısadır. Bu həyatı insan kimi yaşamaq lazımdır. Elə yaşamaq lazımdır ki, sonra peşman olmayasan".

Vətən uğrunda şəhidlik zirvəsinə ucalan Vüqar kimi igid oğullarımızın hər biri yaşadıqları qısa, lakin şərəfli ömürləri ilə adlarını tariximizin qəhrəmanlıq səhifələrinə əbədi olaraq həkk etdilər.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

---

*Qazilərimiz*

# "Döyüş əmrini gözləyirdik və təlimlərdə tər tökərək o günə hazırlaşırdıq..."

Vətən torpağının toxunulmazlığı və bütövlüyü onun uğrunda can verərək, qan tökərək fədakarlıq göstərən cəsur oğullar sayəsində təmin olunur. Azərbaycan gəncləri Birinci Qarabağ müharibəsi, 2016-cı ilin Aprel döyüşləri və 2020-ci ilin sentyabr ayının 27-dən noyabr ayının 9-dək davam edən Vətən müharibəsində əcdadların hərbi ənənələrinə sadiq qaldılar, çətin sınaqlardan layaqətlə keçdilər, düşmənə qarşı rəşadətlə vuruşdular.

Bizi qələbəyə aparan yol bir neçə nəslin həyatında unudulmaz iz qoydu, əbədiyyətə qovuşan Vətən fədailərinin şəhidlər xiyabanlarında məzarlarının sayı artdı, qazilərimizin sıraları genişləndi, amansız müharibənin fəsadları və nişanələri çoxaldı. Bütün bu ağrı-acılara baxmayaraq, biz mübariz xalq kimi zəfər zirvəsini inamla, dəyanətlə fəth etdik. Bu gün biz vaxtilə üzümüzə bağlı yollarla Ağdama, Füzuliyə, Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına, Kəlbəcərə, Hadruta, Şuşaya və digər yurdlarımıza gedirik.

Vətən müharibəsi haqqında real təsəvvürə malik olmaq, döyüşçü missiyasını dərk etmək üçün şəhidlərin və qazilərin döyüş yoluna nəzər salmaq vacibdir.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yetirməsi, hərbi xidmətdən səhhəti ilə bağlı tərxis edilən qazi, baş gizir Məmmədov Xəyal İlqar oğlu Vətən müharibəsi iştirakçısıdır. O, 1989-cu ilin yanvar ayının 23-də o vaxtkı Qazı-Məmməd şəhərində (indiki Hacıqabul şəhəri) anadan olub. İlqar Məmmədov və Aidə Məmmədovanın qurduğu ailənin böyük övladıdır, bir bacısı var. Atası Sovet ordusunda və Azərbaycan ordusunda "gizir" hərbi rütbəsində hərbi xidmətdə olub. Anası 1993-cü ildə ağır xəstəlikdən vəfat edib. Babası Cəfər Məmmədov İkinci Dünya müharibəsində döyüş yolu keçib, ancaq cəbhədən qayıtmayıb. Dayısı Abdulla Muradov zabit olaraq, əmisi Qulu Məmmədov isə "gizir" hərbi rütbəsində Daxili Qoşunlarda 1992-1994-cü illərdə hərbi xidmət keçiblər. Onlar Birinci Qarabağ müharibəsinin iştirakçılarıdır.

Xəyal Hacıqabul şəhərindəki Fariz Cəbrayılov adına 2 saylı orta məktəbdə təhsil alıb. Özünün dediyinə görə, hüquqşünas ixtisasına maraq göstərib. Qəbul imtahanında kifayət qədər bal toplamadığından, tələbə olmaq, ali təhsil almaq arzusu reallaşmayıb. Hərbi xidmətə çağırılanadək Xəyal bir müddət işləyib.

Qeyd edim ki, keçən əsrin 80-ci illərinin sonlarında Ermənistanın respublikamıza





əsassız ərazi iddiaları səbəbindən alovlanan Birinci Qarabağ münaqişəsi illərində və sonrakı uzunmüddətli atəşkəs dövründə böyüyərək formalaşan gənc nəslin nümayəndəsi kimi Xəyalın həyata baxışına, mənəvi əqidəsinə bütün bu proseslər təsirsiz qalmayıb. O, vətənpərvər düşüncəli gənc kimi hərbi xidmət borcunu yerinə yetirməyə yollanıb.

2007-ci ilin oktyabr ayında Xəyal Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb. 25032 saylı hərbi hissədə hərbi and içdiyini söylədi. 99713 saylı hərbi hissədən kiçik komandirlər kursuna göndərildiyini, bu hərbi hissədə kursdan qayıtdıqdan sonra patrul taborunun patrul bölüyündə manqa komandiri və taqım komandirinin müavini vəzifələrində "çavuş" hərbi rütbəsinədək yüksələrək xidmət etdiyini bildirdi. 2009-cu ilin aprel ayında müddətli həqiqi hərbi xidmətdən tərxis edilib.

Xəyal həmişə fikrinə diqqətlə yanaşdığı atası ilə məsləhətləşərək, həyatını hərbçi peşəsinə bağlamaq barədə qərar verib, qəlbində rəğbət bəslədiyi Daxili Qoşunların sıralarına qayıdıb. 2009-cu ilin dekabr ayında müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Həmin vaxtdan etibarən Vətən müharibəsinədək olan dövrdə 25033 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunda atıcı, əməliyyat taborunun əməliyyat bölüyündə taqım komandirinin müavini, təminat bölüyünün təminat taqımında ATS emalatxana rəisi, təminat bölüyünün təminat taqımında avtomatik telefon stansiyasının rəisi, xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunda radiotelefonçu-istehkamçı, istehkamçı yarımqrupunun komandiri-baş istehkamçı vəzifələrinə təyin edilərək komandanlığın etimadını doğruldub.

2011-ci ilin noyabr ayından 2012-ci ilin may ayınadək Xəyal Daxili Qoşunların Ali Hərbi Məktəbi nəzdindəki gizirlərin hazırlanması kursunda təhsil alıb, ona "gizir" hərbi rütbəsi verilib. 2018-ci ilin avqust ayının 18-də "baş gizir" hərbi rütbəsinə yüksəlib.

2015-ci ilin 12 yanvar-6 fevral tarixlərində o, Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin təşkil etdiyi "Əsas humanitar minaaxtarma kursu"nu müvəffəqiyyətlə bitirib.

2018-ci ilin iyun ayının 26-da III dərəcəli "Qüsursuz xidmətə görə" və 2019-cu ilin mart ayının 4-də isə III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə mükafatlandırılıb.

Vətən müharibəsi bir çox döyüşçü kimi onun da həyatının xatirələrində yaşadacağı xüsusi bir səhifəsidir. Xəyalın dediyinə görə, hərbi formanı geyindiyi gündən nə vaxtsa döyüşə gedəcəyi, torpaqlarımızı işğal edən düşmənə qarşı vuruşacağı, şəhidlərin qisasını alacağı barədə həmişə fikirləşib. "Xüsusi təyinatlının əsas amalı döyüş tapşırığını nəyin bahasına olursa-olsun yerinə yetirməkdir. Döyüş əmrini gözləyirdik və təlimlərdə tər tökərək o günə hazırlaşırdıq" - deyə qazi vurğuladı.

2020-ci ilin oktyabr ayının 5-dən başlayaraq baş gizir X.Məmmədov Füzuli rayonunun ərazisində kapitan Cavid Tağıyevin (hazırda 25033 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri) rəhbərliyi altında döyüş əməliyyatlarına cəlb olunub. "Beton post" adlanan ərazidə şiddətli döyüş barədə danışan Xəyal düşmənin artilleriya vasitələrinin atəşinə məruz qaldıqlarını, xüsusən də çoxlu sayda minaatan mərmisinin atıldığını dedi. Göstərilən istiqamətdə hərbi qulluqçularımızdan kiçik gizir Anar Məmmədov şəhid olub, müddətdən artıq xidmət edən çavuş Elvin Abbasov isə yaralanıb.

Qazimiz danışdı ki, Füzuli rayonunun Kərimbəyli kəndi yaxınlığında bir neçə gün müdafiə mövqeyində dayanıblar. Buradan Cəbrayıl rayonunun ərazisinə hərəkət ediblər. Həmin istiqamətdə düşməndən azad olunmuş ərazilərdəki postlarda qarşıya qoyulan tapşırıqları yerinə yetiriblər. Oktyabrın son günündə Cəbrayıl rayonundan Xocavənd rayonunun Hadrut qəsəbəsinə göndəriliblər. Döyüşçülər hərəkət istiqamətləri dəqiqləşdirilərək ayrı-ayrı qruplara bölünüblər. Xəyal kapitan Taleh Rüstəmlinin (hazırda 16077 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun komandiri) tabeliyinə verilən qrupun tərkibində döyüş yolunu davam etdirib.

Xocavənd rayonunun çətin relyefə malik ərazilərindən keçməklə onun daxil olduğu qrup və digər qruplar Şuşaya istiqamət götürüblər. Bir neçə gün piyada yol qət edərək Şuşanın ətrafına yaxınlaşıblar. Şəhərin yaxınlığındakı əlverişli mövqelərin tutulması, düşmənin köməyə gələ biləcək qüvvə və vasitələrinin yolunun kəsilməsi məqsədilə qruplara aidiyyəti döyüş tapşırıqları verilib. Onların qrupu Şuşa ətrafındakı meşəlik ərazidə irəliləyərək Xankəndi yolunu nəzarətə götürmək üçün mövqe tutub. Həmin yerdə düşmənin canlı qüvvəsini atəş zərbəsinə məruz qoyublar. Noyabrın 5-də düşmən tankından bizim mövqeyə atılan mərminin partlaması nəticəsində qəlpələr Xəyalın bədəninin müxtəlif nahiyələrini (üz, hər iki qolu və sağ ayağı) ağır dərəcədə yaralayıb. Döyüşçü yoldaşları ona yardım göstəriblər. O döyüşdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularımız baş çavuş Vüsal Allahyarov, çavuş Afər Orucov, əsgər İsmayıl Məmmədov şəhid olublar, çavuş İlkin Abuyev və kiçik çavuş Rəvan Kazımov isə yaralanıblar.

Noyabrın 8-dək Şuşa uğrunda döyüşlər gedib, düşmən məğlubiyyətə uğrayıb. Xəyal bildirdi ki, onu və digər yaralıları Şuşadakı evlərdən birində yerləşdiriblər. Şuşa uğrunda döyüşlərdə şəhid olan kapitan Şamil Babayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularımız baş əsgər Pərviz Həsənov, əsgər Fərid Seyfullayevin də adlarını xatırladı, baş çavuşlar Fərid Əmiyev, Kənan Kərimov, çavuşlar Ənvər Beydiyev, Zamiq Ağayev, Mehrac Qarayevin şücaət göstərərək erməni işğalçılarını canlı qüvvə və texnika sarıdan ciddi itkiyə məruz qoyduqlarını da nəzərə çatdırdı. Noyabrın 7-də o, döyüş zonasından təxliyyə edilib. Füzuli və Ağcabədi rayonlarındakı xəstəxanalara, Daxili Qoşunların Hərbi Qospitalına, Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına yerləşdirilib, qəlpə yaraları ilə bağlı cərrahi əməliyyat olunub, sağlamlığının bərpası yönündə müalicə alıb.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2020-ci il, 25 dekabr 2020-ci il, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş gizir X.Məmmədov "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Xəyal evlidir, iki oğul və bir qız övladı var. Müharibə vaxtı harada olduğunu ailə üzvlərinə deməyib, onların narahat olmalarını istəməyib. Ön cəbhədən nahiyəsiz, üzüağ qayıtmasından və doğmalarına qovuşmasından xoşbəxtdir. Qazinin bədənində hələ çıxarılmayan xırda qəlpələr, aldığı yaraların müəyyən fəsadları qalıb. Fədakar döyüşçüyə şəfa diləyirik.

**Yalçın Abbasov**

4_Layout 1 14.06.2021 10:25 Page 1



# Vəzifələrinin öhdəsindən layiqincə gələn reqlament və istismar qrupu

17077 saylı hərbi hissənin aviasiya avadanlığı reqlament və istismar qrupunun rəisi kapitan Vüqar Cəfərov aviasiya texnikasının daimi saz vəziyyətdə olmasına, qrupun döyüş hazırlığına, təhkim olunmuş avadanlıqların, xüsusi avtomobillərin, yoxlama-nəzarət cihazlarının və digər vəsaitlərin qorunub saxlanmasına və təyinatı üzrə istifadə olunmasına, aviasiya texnikasında işlərin vaxtında, keyfiyyətlə yerinə yetirilməsinə və bu zaman təhlükəsizlik qaydalarına ciddi əməl olunmasına nəzarət edir.

O, 1984-cü il noyabrın 18-də Samux rayonunda doğulub. Orta təhsilini Nizami Gəncəvi adına Sərkar kənd məktəbində alıb. 2003-2008-ci illərdə Milli Aviasiya Akademiyasında “Avianəqliyyat istehsalatı” ixtisası üzrə ali təhsilə yiyələnib. 2008-2009-cu illərdə Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Daxili Qoşunlarda xidmətə qədər 2009-2012-ci illər ərzində Gəncə Aviatəmir zavodunda mühəndis kimi çalışıb.



2012-ci ilin yanvar ayından Daxili Qoşunların sıralarındadır. Müxtəlif vəzifələrdə xidmət edib. 2019-cu ilin may ayından qrupun rəisidir. Nümunəvi hərbi qulluqçu kimi şəxsi heyətin hörmətini qazanıb. Xidməti vəzifələrinin öhdəsindən bacarıqla gəlir.

Kapitan V.Cəfərov bildirdi ki, hər uçuşdan öncə bortlara, helikopterin cihazlarına baxış keçirilir, aviasiya texnikasında hər hansı nasazlıqlar olarsa, onların səbəbləri araşdırılaraq, aradan qaldırılması üçün müvafiq tapşırıqlar verilir. Reqlament işləri uçuş saatlarına uyğun, müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən aparılır. Ümumilikdə, iki həftədən bir park günü keçirilir, lazım gəldikdə texniki qulluq göstərilir, cihazların tozu təmizlənir.

Aviasiya avadanlığı reqlament və istismar qrupunda texnik leytenant Qeysər Abdullazadə aviasiya texnikasının konstruksiyasının istismar qaydalarını, uçuşa hazırlıq texnologiyasını, reqlamant işlərinin həcmini müəyyən edir. O, həmçinin, yoxlama-nəzarət cihazlarını tətbiq edərək, mövcud nasazlıqları aşkarlayır və onları keyfiyyətlə aradan qaldırır. Bu zaman təhlükəsizlik qaydalarına ciddi riayət olunur. Qrup mütəxəssislərinə reqlament işlərinin aparılma qaydalarını öyrətmək və praktiki vərdişləri aşılamaq üçün onlarla məşğələlər keçirilir.

Qrup rəisi görülən işlərdə reqlament və istismar qrupunda baş mexanik baş çavuş Orxan Beydullayevin, mexaniklər baş çavuş İsmayıl İsmayılzadənin və baş çavuş Şamil Atamoğlanovun əməyini qiymətləndirərək, onlara təhkim olunmuş aviasiya texnikasında bütün reqlament işlərini keyfiyyətlə yerinə yetirdiklərini söylədi.

Akkumulyator doldurma stansiyasında doldurucu çavuş Mirhəsən Xəlilov isə akkumulyator batareyalarının keyfiyyətlə istismarını, onların daim saz və işlək vəziyyətdə olmasını təmin edir.

Göründüyü kimi, qrupun bütün hərbi qulluqçuları vəzifələrinin öhdəsindən layiqincə gəlir və peşə hazırlıqlarının artırılmasına çalışırlar.

**kapitan Xədicə Hacızadə**

*Nümunəvi xidmət*

## İNTİZAMLI, SAVADLI ƏSGƏR

16077 saylı hərbi hissənin təminat bölüyündə hərbi xidmətdə olan əsgər Orxan Seydiyev 1998-ci il martın 25-də Qobustan rayonunda doğulub. Orta təhsilini 2015-ci ildə Abşeron rayonunun Masazır qəsəbəsində yerləşən Laçın tam orta məktəbində başa vurub. Elə həmin ildə də Bakı Dövlət Universitetinin Fizika fakültəsinə qəbul olunub. Dediyinə görə, ən böyük marağı boş vaxtlarında mütaliə etməkdir. Əsasən detektiv janrda yazılan əsərləri daha çox oxuyur. Bir ixtisasçı kimi dəqiq fənləri öyrənsə belə, bədii ədəbiyyata olan sevgisi onu kitablara daim yaxın tutub.



2019-cu ildə ali təhsilini bitirən Orxan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 16077 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə qəbul olunub. Hazırda təminat bölüyünün rabitə taqımında xətt nəzarətçisidir. O, hərbi xidmət borcunu vicdanla yerinə yetirir. Döyüş və ictimai-siyasi hazırlığında çalışqanlığı ilə fərqlənir. Əsgər yoldaşları arasında özünə hörmət qazanıb. Komandirləri onun hərbi intizamını və icraçılığını müsbət xarakterizə edirlər.

Əsgər O.Seydiyev xətt nəzarətçisi olaraq fasiləsiz rabitənin təşkili məqsədilə daima rabitə xətlərinin sazlığını yoxlayır, alınan məlumatları vaxtında aidiyyəti üzrə xidmətlərə ötürür. O bildirir ki, idarəetmə zamanı müvafiq tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi üçün müasir və etibarlı rabitə şəbəkəsinin olması olduqca vacibdir.

Komandirləri tərəfindən verilən tapşırıqların icrasına məsuliyyət hissi ilə yanaşan əsgərimiz Vətənə olan borcunu yerinə yetirdikdən sonra ixtisası üzrə ləyaqətlə çalışaraq, dövlətimizin inkişafına öz töhfəsini vermək niyyətindədir.

**16077 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

*İdman*

# Zabitimiz ölkəmizi yenə də uğurla təmsil edib



Daxili Qoşunların idmançı hərbi qulluqçularının uğurları təqdirəlayiqdir. “Əsgər” qəzetində həmişə onları sizə təqdim edirik. İstər respublikamızda, istərsə də dünya ölkələrində keçirilən beynəlxalq əhəmiyyətli turnirlərdə bayrağımızı şərəflə dalğalandıran idmançı hərbi qulluqçularımız hər birimizin fəxridir. Onların Daxili Qoşunlarda xidmət etməsi qürur hissi doğurur. Son illər keçirilən müxtəlif idman yarışlarında ölkəmizi və Daxili Qoşunları layiqincə təmsil edən hərbi qulluqçularımızdan biri bu dəfə də ənənəsinə sadiq qalıb.

Daxili qoşunların idman komandasının məşqçi-müəllimi vəzifəsində xidmət edən vətənpərvər hərbi qulluqçumuz kapitan Ruslan Lunevin növbəti nailiyyətinin sorağı Xorvatiyadan gəlib. Belə ki, may ayının 20-dən iyunun 5-dək Xorvatiya Respublikasının Osiek şəhərində keçirilən güllə atıcılığı üzrə Avropa çempionatında iştirak edən idmançımız 16 ölkədən 40 idmançının qatıldığı yarışda 25 metr məsafədən hədəfə kiçikçaplı tapançadan atəşaçmada üçüncü yerin sahibi olub. Təmsilçimiz 582 xal toplamaqla bu nəticəyə nail olub.

Qeyd edək ki, Ruslan keçən il İtaliyanın Bolonya şəhərində keçirilən Avropa çempionatında 25 metr məsafədən hədəfə kiçikçaplı tapançadan atəşaçma yarışının qalibi olaraq qızıl medal qazanıb. İdmançımız bu qələbəsilə koronavirus pandemiyası səbəbindən 2020-ci ildə təxirə salınan və bu il keçirilməsi planlaşdırılan Tokio Yay Olimpiya Oyunlarına vəsiqəni əldə edib.

“İdmançılar həmişə qələbə üçün çalışırlar. Qələbə hər bir idmançı üçün həmişə həyəcanvericidir. Uğurları təmin etmək üçün idmançılarda möhkəm iradə, yüksək səviyyədə vətənpərvərlik ruhu, məşğul olduqları idman növünə sevgi vacib amillərdir” - deyən Ruslan həm zabit kimi Daxili Qoşunlarda xidmət etməkdən, həm də beynəlxalq yarışlarda ölkəmizin idman şərəfini ucaltmasından qürur duyduğunu vurğuladı.

Qarşıda hərbi qulluqçumuzu “Tokio 2020” Yay Olimpiya Oyunları gözləyir. Həmin oyunlara ciddi hazırlaşan zabitimiz ümid edirik ki, öz məharətini göstərəcək, Azərbaycana olimpiya medalları qazandıraraq, bayrağımızı qalib zirvəyə qaldıracaq və himnimizi səsləndirəcək.

**kapitan Sadıq Rəfiyev**

# NARKOMANİYA - BƏŞƏRİYYƏTİ MƏHVƏ APARAN “AĞ ÖLÜM”

Müasir dövrümüzdə hər birimizi düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır. Dünya ictimaiyyətinin səylərinə baxmayaraq, hələ də narkomaniya bəlası ilə mübarizə aparmaq üçün səmərəli yollar aşkar etmək və narkomanların sayını azaltmaq mümkün olmayıb.

Narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, külli miqdarda pul vəsaiti tələb edən bir prosesdir. Bu problemin ictimai təhlükəli olması isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və günü-gündən artır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, yəni oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.

Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində ölkəmizdə də məqsədyönlü işlər aparılır.





Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı” təsdiq edilib.

Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilmiş müvafiq tədbirlər planının vaxtlı-vaxtında icrası təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən, daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların tibb xidmətinin həkim hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi profilaktiki işlər görülür.

Gələcəyimizi məhvə aparan və “ağ ölüm” adlandırılan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin, bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### İsrail əsgərləri robotlarla əvəz edir

İsrail Müdafiə Ordusunun nümayəndələri əsgərləri əvəz edə biləcək döyüş robotlarının istismarına başlayıb.

“Poliqon” İsrail Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, Müdafiə Ordusu Qəzza zolağı ilə sərhəddə avtomatlaşdırılmış “Jaguar” maşınlarını yerləşdirib.



“Onlarla sensor, avtomatlaşdırılmış sürücü sistemi, genişləndirilmiş atəş qabiliyyəti və xəbərdarlıq sistemi ilə təchiz olunmuş bu robot İsrail Müdafiə Ordusunu daha səmərəli və texnoloji cəhətdən inkişaf etdirir” - deyə İsrail Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

“Jaguar” robotlaşdırılmış maşını “İsrail Aerospace Industrie” (IAI) şirkəti tərəfindən hazırlanıb. Pilotsuz vasitə həm yerindən, həm də hərəkətdə nişangah atəşi apara bilən 7.62 mm-lik MAG pulemyotu ilə təchiz edilib. Maşın ərazidə səmtləşmə və görüntülərin operatora ötürülməsi üçün yüksək dəqiqlikli kameralardan istifadə edir. Həmçinin, maşında güclü işıqlandırma vasitələri və məsafədən idarə olunan rabitə sistemi nəzərdə tutulub. Bundan başqa, düşmən tərəfindən texnologiyaların ələ keçirilməməsi üçün hazırlanmış özünüməhvetmə sistemi ilə digər robot-maşınlardan fərqlənir. “Jaguar” elektrik mühərrikli, üçoxlu, altıtəkərli və yüksək keçidlikli şassi üzərində qurulub.

### ASELSAN CENKER döyüşçü təchizatının seriyalı istehsalına başladı

Türkiyənin ASELSAN şirkəti tərəfindən hazırlanan CENKER (TEK-ER Komuta Kontrol Bilgi Sistemi) döyüşçü təchizatının seriyalı istehsalına başlanıb.



“Poliqon” xəbər verir ki, bu barədə ASELSAN şirkəti məlumat yayıb.

CENKER təchizatı əməliyyat zamanı hərbi birliklər ilə əsgərlərin rəqəmsal şəbəkə daxilində kəşfiyyat, nəzarət, xəbərləşmə, habelə koordinasiya tələbatını qarşılamaq və personalların döyüş bacarığını artırmaq üçün nəzərdə tutulub.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000